# Mərkəzi Bankda açılmış hesablar üzrə hesablaşma-kassa xidmətinin göstərilməsi

# REQLAMENTİ

1. **Mərkəzi Bankda açılmış hesablar üzrə hesablaşma-kassa xidmətləri aşağıdakı vaxtlarda (şənbə və bazar, habelə digər qeyri-iş günləri istisna olmaqla) göstərilir:**

**1.1. AZIPS üzrə:**

| Vaxt | Əməliyyatların məzmunu | İcraçı |
|---|---|---|
| $09^{20}$ – $16^{45}$ | Müştəri ödənişlərinin göndərilməsi | İştirakçı |
| $09^{20}$ – $17^{15}$ | Bank ödənişlərinin göndərilməsi | İştirakçı |
| $09^{20}$ – $18^{00}$ | Gələcək tarixlər üçün nəzərdə tutulmuş müştəri və bank ödənişlərinin göndərilməsi | İştirakçı |
| $09^{20}$ – $17^{15}$ | İştirakçılar tərəfindən göndərilən ödənişlərin, sorğuların qəbulu və emalı | Mərkəzi Bank |
| $09^{20}$ – $17^{25}$ | Baş Mühasibat Sistemindən hesab transferlərinin qəbulu və emalı | Mərkəzi Bank |
| $17^{25}$ – $17^{35}$ | İştirakçılar tərəfindən aparılan əməliyyatlara görə xidmət haqlarının tutulması | Mərkəzi Bank |
| $17^{40}$ – $17^{50}$ | İştirakçıların hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |

**1.2. XÖHKS üzrə:**

| Vaxt | Əməliyyatların məzmunu | İcraçı |
|---|---|---|
| $09^{25}$ – $16^{00}$ | İştirakçılar tərəfindən ödəniş tapşırıqlarının göndərilməsi | İştirakçı |
| $09^{25}$ – $14^{30}$ | İştirakçılar tərəfindən ödəniş tələbnamə-tapşırıqlarının göndərilməsi | İştirakçı |
| $09^{25}$ – $16^{40}$ | Sorğuların göndərilməsi | İştirakçı, Mərkəzi Bank |

| | | |
|---|---|---|
| $09^{25} – 16^{40}$ | Gələcək tarixlər üçün nəzərdə tutulmuş ödənişlərin göndərilməsi | İştirakçı |
| $12^{00} – 12^{35}$ | 1-ci klirinq sessiyasının yekunlaşdırılması və nəticələrin iştirakçılara göndərilməsi | Mərkəzi Bank |
| $14^{30} – 15^{05}$ | 2-ci klirinq sessiyasının yekunlaşdırılması və nəticələrin iştirakçılara göndərilməsi | Mərkəzi Bank |
| $16^{00} – 16^{40}$ | 3-cü klirinq sessiyasının yekunlaşdırılması və nəticələrin iştirakçılara göndərilməsi | Mərkəzi Bank |
| $16^{45} – 17^{05}$ | İştirakçıların hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |

**1.3. Kağız daşıyıcıları və SWIFT sistemi ilə aparılan əməliyyatlar üzrə:**

| **Vaxt** | **Əməliyyatların məzmunu** | **İcraçı** |
|---|---|---|
| 10:00 – 18:00 | Hesablar üzrə çıxarışların və ona əlavə olunmuş sənədlərin verilməsi | Mərkəzi Bank |
| 10:00 – 15:00 | Ödəniş sənədlərinin Banka təqdim olunması | İştirakçı |
| 10:00 – 16:30 | SWIFT sistemi ilə ödəniş sənədlərinin göndərilməsi | İştirakçı |
| 10:00 – 16:30 | Qəbul edilən sənədlərin icrası | Mərkəzi Bank |

**1.4. Nağd vəsaitlərlə aparılan əməliyyatlar üzrə:**

| **Vaxt** | **Əməliyyatların məzmunu** | **İcraçı** |
|---|---|---|
| 10:00 – 16:00 | Nağd vəsaitlərin alınması və təhvil verilməsi | Müştəri |

**Qeyd:** Qanunvericilikdə nəzərdə tutulmuş qısaldılmış iş günlərində bu Reqlamentin 1.1-1.4-cü yarımbəndlərində göstərilmiş əməliyyatların başa çatdırılma vaxtı bir saat qısaldılır.

**2. AZIPS və XÖHKS üzrə ödəniş sənədlərinin və digər məlumatların emalı vaxtının uzadılması (qeyri-iş günlərində sistemlərin açılması) aşağıdakı qaydada həyata keçirilir:**

**2.1.** Sistemlərdə ödəniş sənədlərinin və digər məlumatların emalı vaxtı İştirakçının əməliyyat gününün sonuna ən geci 30 dəqiqə qalmış Mərkəzi Banka elektron və ya kağız daşıyıcılarda təqdim etdiyi əsaslandırılmış müraciəti ilə aşağıdakı qaydada uzadıla bilər (Mərkəzi Bank tərəfindən bu barədə bütün İştirakçılara kağız və ya elektron daşıyıcılarda məlumat verilməklə):

| | |
|---|---|
| İştirakçıların müxbir hesablarına Mərkəzi Bankın xidmət göstərən bölməsinin rəhbəri tərəfindən | 15 dəqiqəyədək |
| İştirakçıların müxbir hesablarına Mərkəzi Bankın xidmət göstərən bölməsinə kuratorluq edən rəhbər vəzifəli şəxsi tərəfindən | 15 dəqiqədən artıq müddətə |

**2.2.** Şənbə və bazar, habelə digər qeyri-iş günlərində sistemlərdə əməliyyatların aparılmasına Mərkəzi Bankın sədri tərəfindən qərar verilə bilər. Bu barədə bütün İştirakçılara bir gün əvvəl elektron və ya kağız daşıyıcılarında məlumat verilir.

**3. XÖHKS-də hər bir ödəniş əməliyyatı üçün müəyyənləşdirilmiş limit**

XÖHKS-də aparılan hər bir ödəniş əməliyyatının məbləği Dövlət Xəzinədarlığı Agentliyi, Mərkəzi Bank, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən göndərilən və alınan ödənişlər istisna olmaqla 40000 (qırx min) manatdan çox olmamalıdır.

**4. AZIPS və XÖHKS-ün fəaliyyətində fasilələr haqqında məlumatlandırma**

AZIPS və XÖHKS-ün fəaliyyətində hər-hansı səbəbdən fasilələr yaranarsa Mərkəzi Bank dərhal İştirakçıları bu haqda elektron və ya kağız daşıyıcılar vasitəsilə məlumatlandırır.